# Şifahi xalq ədəbiyyatı nümunələri vətənpərvərlik tərbiyəsində qiymətli mənbə kimi

**Zenfira Vəliyeva**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*ADPU-nun dosenti*

**Rəyçilər:** ped.ü.f.d., dos. P.M. Həsənova,
ped.ü.f.d., dos. G.V. Sultanova

**Açar sözlər:** vətənə məhəbbət, milli dəyər, vətənpərvərlik, sosial-mənəvi tərbiyə
**Ключевые слова:** любов к родине, национальная ценность, патриотизм, социальное и нравственное воспитание
**Key words:** love to homeland, national value, patriotism, social and moral education

Vətənpərvərlik tərbiyəsi, torpağı-vətəni qorumaq, onun yolunda qəhrəmanlıqlar göstərmək bütün tarixi dövrlərdə cəmiyyətin mütərəqqi şəxsiyyətlərini düşündürmüş, onların diqqət mərkəzində olmuşdur. Vətənə qarşı belə müqəddəs hisslərin formalaşdırılması və onu reallaşdırmaq imkanları xalqın, dövlətin prioritet istiqamətlərindəndir. Belə ki, təhsil nazirinin "Ümumi təhsil sahəsində 2018-2019-cu dərs ilinin prioritet fəaliyyət istiqamətləri barədə" əmrinə əsasən 2018-2019-cu dərs ilinin ilk dərs məşğələsi ibtidai siniflərdə "Vətənim Azərbaycan", V-XI siniflərdə "Dövlət rəmzləri-müstəqilliymizin simvolu", X-XI siniflərdə "Azərbaycan Xalq Cümhuriyyəti - dövlətçiliyimizin bayraqdarı" mövzularına həsr olunacaq. Bütün ümumi təhsil müəssisələrində hər iş həftəsinə pedaqoji və şagird heyəti tərəfindən Azərbaycan Dövlət Himninin ifası ilə başlanması vətənpərvərlik nümunəsi kimi ümumi norma olaraq qəbul edilir.

Vətəni milli qürur mənbəyi hesab edən Ulu Öndər Heydər Əliyev dəfələrlə çıxışlarında demişdir: “Gənclərimiz bizim tariximizi, keçmişimizi, dilimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa, yurduna bağlı olmaq - budur Vətənpərvərlik” (3).

Görkəmli şəxsiyyətə görə xoşbəxt uşaqlığı xalqın həyatından, onun ictimai quruluşundan və qanunauyğunluqlarından ayırmaq olmaz. Uşaqlar təkcə ailə mühitini deyil, ictimai həyatın müxtəlif sahələrini görür, onlardan təsirlənir. İctimai həyatda baş verən hadisələr şüurlu, qanunauyğun və elmi əsasda qurulan ləyaqətli insan tərbiyə etmək asan olar. Çünki uşaqların ləyaqətli bir vətəndaş kimi tərbiyə olunması bunu tələb edir.

Vətənə sədaqət, xalqa, milli və mənəvi sərvətlərinə, Vətənə, xalqa, doğma torpağına, yurduna məhəbbət, adət-ənənələrinə hörmət Azərbaycan xalqının nəcib əxlaqi keyfiyyətlərindəndir.

Tarixin inkişafı gedişində vətənpərvərlik hissinin mahiyyəti və təzahür formaları yaşayış şəraitindən və insanlar arasında olan əlaqələrin dəyişməsi ilə bağlı olaraq dəyişmiş və inkişaf etmişdir. Azərbaycan xalqı da öz doğma yurdunu, Vətənini qızğın məhəbbətlə sevmişdir.

Bu hisslərin gənc nəslə hələ məktəbəqədər dövrdən aşılamağı məsləhət bilinmişdir. Müasir pedaqogika əxlaq tərbiyəsinin tərkib hissəsi kimi vətənpərvərlik tərbiyəsini tərbiyənin başqa tərkib hissələri ilə vəhdətdə götürülməsini vacib hesab edir.

Azərbaycan xalqının vətənə məhəbbət hissi çox qədim zamanlardan “Doğma yurd şirin

olar", "Hər kəsə öz Vətəni əzizdir", "Hər quşun öz yuvası istidir", "Torpaq qüvvətli olar" və s. atalar sözlərində öz ifadəsini tapmışdır.

Bu baxımdan xalqımızın soy-kökünün qədimliyindən, mənəvi zənginliyindən xəbər verən "Kitabi-Dədə Qorqud" dastanını öyrənmək olduqca aktualdır. Soy-kökümüzün güzgüsü, əxlaq kodeksi sayılan "Kitabi-Dədə Qorqud" dastanı zamana görə bizdən ən uzaq dövrdən xəbər verən hikmətli bir kitabdır. Əjdər Ağayev haqlı olaraq onu milli tərbiyə məktəbi adlandırır. O, göstərir ki, bu dastan türk-oğuz xarakterini, məişətini, mənəviyyatını, şəxsi-fərdi xüsusiyyətlərini, onların həyat, insan, əməl, fəaliyyət haqqında baxışlarını anlamaq üçün ən gözəl mənbədir (1, 104).

Dastan epos olmaq etibarilə onun əsas ideyasını vətənpərvərlik təşkil edir. Belə ki, insan cəmiyyətinin formalaşmasının ilkin mərhələsində aləm haqqında təsəvvürlərin birinci qatı mifologiyada cəmlənmişdir. Sonrakı qat isə epos adlanır. Epos etnoslararası münasibətlərin, münaqişələrin və müharibələrin nəticəsi olaraq yarandığından onun əsas ana xəttini, ideyasını qəhrəmanlıq, qoçaqlıq, cəsurluq, yurdsevərlik təşkil edir. Tariximizi, məişətimizi, adət-ənənələrimizi əks etdirən, milliliklə bəşəriliyi özündə birləşdirən bu dastan Azərbaycan xalqının insanpərvər, yüksək humanist keyfiyyətlərə malik, saf və təmiz ailəyə sahib olma meyillərini əks etdirir. Düşmən təcavüzünə məruz qalmış torpaqlarımızı işğal edənlərə, tariximizi saxtalaşdıranlara, mənəvi mədəniyyət nümunələrimizə zorla sahib çıxmaq istəyənlərə "Kitabi-Dədə Qorqud" dastanı tutarlı tarixi bir zərbədir. Şifahi xalq ədəbiyyatında Vətən sevgisini tərənnüm edən "Koroğlu" dastanından, bayatılardan, atalar sözlərindən təsirli misallar göstərmək olar. Xalq arasında belə bir bayatı geniş yayılmışdır:

Əzizim vətən yaxşı
Geyməyə kətan yaxşı.
Gəzməyə qərib ölkə,
Ölməyə Vətən yaxşı.

Xalqımız Vətənin qədrini həmişə bilmiş və onu əziz tutmuşdur. Öz Vətənini dərin məhəbbətlə sevən Azərbaycan xalqı həmişə yadellilərə qarşı qəhrəmanlıqla vuruşmuşdur. Babək, Cavanşir, Koroğlu, Nəbi, Həcər, Gültəkin, Mübariz, Fərid və yüzlərlə qəhrəmanlarımız zəhmətkeş xalqla birləşib vətənimizin azadlığı uğrunda zülm və soyğunçuluğu aradan qaldırmaq üçün mətanətlə vuruşmuşlar.

İctimai həyatın gözəlliyi haqqında uşaq şüurunda formalaşan anlayışlar, onda doğma yurda məhəbbət hissinin güclənməsinə müsbət təsir göstərir. Uşaq tədricən doğma yurdunun təbiətinə, möhtəşəm və yaraşıqlı binalarına, baharda yaşıllaşan, payızda saralan ağaclarına, əlvan çiçəklərinə bağlanır: onda yaşadığı yerin hər yerdən yaxşı və yaraşıqlı olduğu əqidəsi yaranır. Lakin məktəbəqədər yaşlı uşaqlarda vətənpərvərlik hissini onun yaşadığı mühitin gözəlliyi ilə məhdudlaşdırmaq düzgün olmaz.

Uşaq doğma yurda, Vətənə məhəbbət hissini əsasən yaşlıların təbiətə, doğma yerlərə münasibətini nümunə əsasında mənimsəyir. Məsələn, ata-anası ilə bulvara, parka gəzintiyə çıxan 5 yaşlı uşaq gündən-günə gözəlləşən, yaşıllığa qərq olan bu yer, Xəzər, sahilə can atan qırçın ləpələr, dənizin içərisinə doğru uzanan körpü və s. haqqında valideynlərinin söhbətlərini dinlədikcə, həmin xoş mənzərəyə onların gözü ilə baxdıqca çox şeylər duyur. Uşaq hiss edir ki, bu gözəllik, bu möhtəşəm binalar, dənizdə üzən nəhəng gəmilər, neft buruqları öz-özünə əmələ gəlmir, yaşlıların əməyi ilə yaradılır. Bu mənada belə gəzinti və söhbətlər zamanı anlayış və xəyalına düzgün istiqamət vermək, ona aydın olmayanları

aydınlaşdırma, gördüyü yerlərin bu günü və gələcəyi haqqında aydın, səlist dillə izahat vermək zəruri və faydalıdır.

Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələrində təbiəti qorumaq, əməyi sevmək, əmək adamlarına rəğbətlə yanaşmaq, əşyalarla ehtiyatla davranmaq və s. kimi keyfiyyətlər vətənpərvərlik tərbiyəsində əsas mənbə kimi götürülür. Məktəbəqədər yaşlı uşaqlarda vətənə, doğma yurda məhəbbət də elə bu prosesdə formalaşır və tədricən inkişaf edir. Ona görə də vətənə məhəbbət tərbiyəsində şifahi xalq ədəbiyyat nümunələrindən istifadə etməklə yanaşı uşaqların gözəl yurdumuza, qəhrəman xalqımıza məhəbbət tərbiyəsi ilə yanaşı həyata keçməlidir.

Məktəbəqədər yaşlı uşaqlarda doğma yurda məhəbbət və vətənpərvərlik hissi aşılamaq üçün aşağıdakı vəzifələri yerinə yetirmək lazımdır :

— Uşaqlarda kiçik yaşlardan doğma və gözəl yurdumuza, qəhrəman xalqımıza məhəbbət hissi tərbiyə etmək.

— Məktəbəqədər yaşdan Vətən üçün zəhmət çəkməyə, ailədə, uşaq bağçasında uşaqların yaşlarına müvafiq özünəxidmət və faydalı əməkdə iştirak etmək vərdişi yaratmaq.

— Vətənimizdə yaşayan qardaş xalqlara məhəbbət və rəğbət hissi aşılamaq.

— Kiçik yaşdan öz Vətəninin sərvəti, əzəməti və gözəlliyi ilə fəxr etmək, daha doğrusu, milli iftixar hissi tərbiyə etmək.

— Məktəbəqədər yaşdan uşaqlarda Vətənimizin düşmənlərinə, millətçilərə qarşı nifrət hissi oyatmaq.

Beləliklə, məktəbəqədər yaşlı uşaqlarda vətənpərvərlik hissinin əmələ gəlməsində ictimai mühitlə tanışlığın müstəsna əhəmiyyəti vardır. Çünki, uşaq üçün Vətən ailədən, yaşadığı mühitdən, doğma yurddan başlayır.

**Məqalənin aktuallığı.** Şərh etdiyimiz məsələlər hər zaman aktualdır. Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması, ulu babalarımızdan bizə miras qalmış zəngin mənəvi irsimizi öyrənmək, onun elmi mahiyyətini açmaq müasir dövrdə xüsusi əhəmiyyət kəsb edir. Bu mənada milli-mənəvi dəyərlərimizin, tarixi köklərimizin araşdırılması və təbliğinə dərindən bələd olmaq olduqca aktualdır.

**Məqalənin elmi yeniliyi.** Klassik pedaqoqların vətənpərvərlik haqqındakı fikirlərinin qloballaşma dövründə də öz əhəmiyyətini itirməməsi, indi də qüdrətli mənbə mövqeyində olması elmi şəkildə əsaslandırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə irəli sürülən təkli və nəticələrdən məktəbəqədər sahə üzrə çalışanlar və uşaq birliyi rəhbərlərinin işinin yenidən qurulmasında istifadə oluna bilər.

## Ədəbiyyat

1. Ağayev A. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı: Avropa, 2005.

2. Əliyeva Ş.Q. Məktəbəqədər pedaqogika. Bakı, 2010.

3. Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. ”Xalq qəzeti”, 1996. 6 fevral.

4. Kitabi-Dədə Qorqud. Bakı: Yazıçı, 1988.

5. Vəliyeva Z.İ. Məktəbəqədər yaşlı uşaqların əxlaq tərbiyəsi. Bakı, 2012.